47 (1353) 28 noyabr - 4 dekabr 2024-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymәti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# “COP29 İQLİM DİPLOMATİYASINDA DÖNÜŞ NÖQTƏSİDİR!”

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də sosial şəbəkə hesablarında **“COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir!”** sərlövhəsi ilə paylaşım edib.

**Paylaşımı təqdim edirik:**

“Azərbaycan bir ildən az müddət əvvəl beynəlxalq ictimaiyyətin yekdil dəstəyi ilə COP29-a ev sahibliyi etməkdən şərəf duydu.

Müddətin qısa olmasına baxmayaraq, Azərbaycan COP-un rahat və yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi hazırlıqları həyata keçirməyə nail oldu. Mübaliğəsiz deyə bilərik ki, Bakı COP tədbiri ən möhtəşəm COP-lardan biri kimi tarixə düşəcək.



Biz 80 dövlət və hökumət başçısının, qeydiyyatdan keçmiş 76 mindən çox iştirakçının qatıldığı COP29-un çox yaxşı təşkil olunması ilə bağlı bütün qonaqlardan yüksək qiymət almaqdan qürur duyuruq.

Genişmiqyaslı və planlaşdırılmış böhtan və qarayaxma kampaniyasına baxmayaraq, Azərbaycan iqlim danışıqlarında tarixi nəticələr əldə etməyə müvəffəq oldu.

“Yaşıl dünya naminə həmrəylik” şüarını rəhbər tutan Azərbaycan bitərəf vasitəçi kimi çıxış edərək danışıqların qərəzsiz aparılması üçün bütün imkanları yaratdı. Bütün proses boyu biz inkişaf etməkdə olan ölkələrin, xüsusilə kiçik ada dövlətlərinin və ən az inkişaf etmiş dövlətlərin ehtiyaclarını nəzərə alan nəticə əldə etməyə çağırış etdik, çünki onlar iqlim dəyişmələrinin ağır yükünü daşıyırlar və ekzistensial təhlükə ilə üzləşirlər.

Biz, həmçinin müstəmləkə idarəçiliyi ilə daha da ağırlaşan ekoloji problemlərdən əziyyət çəkən xalqlar və regionlar ilə həmrəylik nümayiş etdirdik.

Azərbaycan inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpülərin qurulması üçün səylərini əsirgəmədi və bunun nəticəsində dünya tarixi Bakı nailiyyətinə şahid oldu.

Bakı COP-da İtki və Zərər Fondu tam işlək vəziyyətə gətirildi. Biz, həmçinin karbon bazarına dair çoxdan gözlənilən 6-cı maddənin tam işlək vəziyyətə gətirilməsinə nail olduq.

Ən əsası, Bakı COP 2035-ci ilə qədər inkişaf etməkdə olan ölkələrə 300 milyard ABŞ dolları təmin etmək üçün qarşıya yeni qlobal məqsəd qoyan Yeni Kollektiv Kəmiyyət Məqsədinin (NCQG) şahidi oldu. Bu razılaşma inkişaf etməkdə olan ölkələrə iqlim dəyişmələrinin fəsadları ilə mübarizədə kömək edəcək.

Mən Bakı nailiyyətini çoxtərəfliliyin təntənəsi kimi qiymətləndirirəm. COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir və mən inanıram ki, bu irs gələcək qlobal iqlim fəaliyyətinə müsbət təsir göstərəcək. Mən COP29-a gedən yolda Azərbaycana göstərdikləri dəstəyə görə bütün Tərəflərə, Birləşmiş Millətlər Təşkilatına və UNFCCC-yə minnətdarlığımı bildirirəm”.

# PREZİDENT İLHAM ƏLİYEV YENİDƏN ABŞ PREZİDENTİ SEÇİLMƏSİ MÜNASİBƏTİLƏ DONALD TRAMPI TƏBRİK EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yenidən Amerika Birləşmiş Ştatlarının Prezidenti seçilməsi münasibətilə Donald Trampa zəng edib.

Donald Trampı Amerika Birləşmiş Ştatlarının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə təbrik edən dövlətimizin başçısı seçkilərdə inamlı qələbənin Amerika xalqının onun yürütdüyü siyasi xəttə böyük dəstək və etimadın aşkar ifadəsi olduğunu bildirib.

Prezident İlham Əliyev vurğulayıb ki, Prezident Donald Trampın fəaliyyəti dünyada təhlükəsizliyin təmin olunmasında daha da önəmli rol oynayacaq. Birinci prezidentlik dövründə Azərbaycan ilə Birləşmiş Ştatlar arasında dostluq və əməkdaşlığın möhkəmlənməsinə Donald Trampın xüsusi diqqət ayırdığını deyən dövlətimizin başçısı ikitərəfli əlaqələrimizin irəli aparılması üçün birgə səylər göstəriləcəyinə ümidvarlığını ifadə edib. Prezident Donald Tramp öz növbəsində səmimi təbriklərə görə Prezident İlham Əliyevə dərin təşəkkürünü bildirib və ölkələrimiz arasında əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə birgə səylərlə çalışmağın vacibliyini vurğulayıb.

# MİLLİ MƏCLİSİN PLENAR İCLASINDA 2025-Cİ İLİN DÖVLƏT BÜDCƏSİ MÜZAKİRƏ EDİLİB




*Noyabrın 25-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib.*

İclasda Azərbaycan Respublikasının **Baş naziri Əli Əsədov** və hökumət üzvləri iştirak ediblər.

**Milli Məclisin sədri Sahibə Qafarova** iclası açaraq Bakıda Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının uğurla başa çatdığını bildirib. Deyib ki, bəşəriyyətin gələcəyi ilə bağlı olan bu dünya miqyaslı tədbiri ən yüksək səviyyədə keçirməklə Azərbaycan istər regional, istərsə də qlobal iqlim problemlərinin həllində lider imicini möhkəmləndirdi və yeni mötəbər toplantıların keçirilməsi imkanlarını daha da artırdı.

S.Qafarova COP29 çərçivəsində keçirilmiş Parlament Görüşü, eyni zamanda Rusiyanın Sankt-Peterburq şəhərində təşkil olunmuş MDB Parlamentlərarası Assambleyasının Şura və 57-ci Plenar iclasları barədə də məlumat verib.

Sonra o, 2025-ci ilin dövlət büdcəsi layihəsi barədə fikirlərini bölüşüb. Deyib ki, 2025-ci ilin dövlət büdcəsi iqtisadi inkişaf, dayanıqlılıq və inklüzivlik təməlləri üzərində qurulub.

İclasda parlamentin **İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov** bildirib ki,



“Büdcə sistemi haqqında” Qanunun 12-ci maddəsinə uyğun olaraq “Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında” qanun layihəsi və büdcə zərfinə daxil olan digər layihələr Prezident İlham Əliyev tərəfindən Milli Məclisə təqdim olunub. O, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin və digər komitələrin iclaslarında müvafiq dövlət orqanlarının rəhbərlərinin və nümayəndələrinin iştirakı ilə qanun layihələrinin geniş müzakirə olunduğunu deyib.

Makroiqtisadi göstəricilər barədə məlumatda bildirilib ki, ölkənin strateji valyuta ehtiyatları 73 milyard dollar təşkil edir. 2024-cü ilin on ayında müşahidə olunan müsbət makroiqtisadi meyillər 2025-ci il üzrə proqnozlar üçün pozitiv əsaslar yaradır. Proqnozlara görə, növbəti ildə ümumi daxili məhsul 3,5 faiz, qeyri-neft-qaz ümumi daxili məhsulu 4,9 faiz artacaq. ÜDM-də qeyri-neft-qaz sektorunun payının 68 faizdən 71,3 faizə çatacağı gözlənilir. Adambaşına ÜDM-in 2025-ci ildə 7412 ABŞ dolları təşkil edəcəyi proqnozlaşdırılır. İnflyasiyanın səviyyəsi 4,6 faiz nəzərdə tutulur.

Qeyd olunub ki, dövlət büdcəsinin gəlirləri 38,3 milyard manat, xərcləri 41,4 milyard manat, kəsiri isə 3 milyard 52 milyon manat proqnozlaşdırılır.

Qeyd edilib ki, büdcə gəlirlərinin 49 faizi neft, 51 faizi isə qeyri-neft gəlirlərinin hesabına formalaşacaq. Gəlirlərin 15,5 milyard manatı Dövlət Vergi Xidmətinin, 14,5 milyard manatı Dövlət Neft Fondundan transfertin, 6,6 milyard manatı Dövlət Gömrük Komitəsinin, 840 milyon manatı büdcə təşkilatlarının daxilolmalarının, 895 milyon manatı digər gəlirlərin payına düşür.

Bildirilib ki, 2025-ci ilin dövlət büdcəsi xərclərinin 60,1 faizini cari xərclər, 34,1 faizini əsaslı xərclər, 5,8 faizini dövlət borcuna xidmətlə bağlı xərclər təşkil edir. Sosialyönümlü xərclərin 8,8 faiz artırılaraq 16,9 milyard manata çatması və dövlət büdcəsi xərclərinin 41 faizini təşkil etməsi sosial siyasətin prioritetliyini ifadə edir. Növbəti ildə minimum əməkhaqqının və minimum pensiyanın artırılması, sosial müavinətlər və təqaüdlər istiqamətində addımların atılması, pensiyaların indeksləşdirilməsi planlaşdırılır. Ümumilikdə sosial paket 3 milyon insanı əhatə edəcək.

Komitə sədri söyləyib ki, 2025-ci ilin dövlət büdcəsi layihəsində iqtisadi strategiyanın icrası üçün 2,5 milyard manat vəsait nəzərdə tutulur. Postmüharibə dövründə Qarabağ və Şərqi Zəngəzurda bərpa və yenidənqurma işləri əsas prioritetlərdəndir. Növbəti ilin dövlət büdcəsi layihəsində bu məqsədlər üçün 4 milyard manat nəzərdə tutulub. Bildirilib ki, 2025-ci ilin dövlət büdcəsi layihəsi tərtib edilərkən neftin qiyməti 70 dollar götürülüb. 2025-ci ilin büdcə zərfinə əsasən Dövlət Neft Fondundan dövlət büdcəsinə ayrılan transfertlər artırılaraq 14.481 milyon manat nəzərdə tutulur.

Sonra **maliyyə naziri Samir Şərifov** çıxış edib. O, Azərbaycan xalqının və dövlətinin bir sıra əlamətdar hadisələrlə yadda qalacaq 2024-cü ili uğurla başa vuracağını qeyd edib.

Maliyyə naziri deyib ki, dövlət başçısının qarşıya qoyduğu vəzifələrin icra olunması 2025-ci ilin dövlət büdcəsi layihəsi hazırlanarkən əsas götürülüb. Eyni zamanda, qeyd edilib ki, 2025-ci ilin dövlət büdcəsində təklif olunan 41367,7 milyon manat xərclərin üçdə ikisi və yaxud 27691 milyon manatı məhz yuxarıda qeyd olunan prioritet istiqamətlərin maliyyələşdirilməsi üçün ayrılacaq. Diqqətə çatdırılıb ki, 2025-ci ildə sosialyönümlü xərclər 16910 milyon manat və ya dövlət büdcəsi xərclərinin 41 faizini təşkil edəcək. Növbəti ildə əhalinin sosial cəhətdən həssas qruplarının sosial müdafiəsinin gücləndirilməsi və sosial təminat xərcləri üçün 4812 milyon manat, ünvanlı dövlət sosial yardım üçün 457 milyon manat, keçmiş məcburi köçkünlərin sosial müdafiəsi üçün 311 milyon manat vəsait ayrılacaq.



Bildirilib ki, büdcə layihəsində təhsil xərclərinə 4946,1 milyon manat ayrılması proqnozlaşdırılır və bu, 2024-cü illə müqayisədə 395,7 milyon manat və ya 8,7 faiz çoxdur. Valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş, əlil olmuş şəxslərin və keçmiş məcburi köçkünlərin övladları olan tələbələrin, müharibə veteranlarının ali təhsil xərclərinin dövlət hesabına ödənilməsi üçün 41 milyon manat vəsait ayrılacaq.

(davamı 2-ci səhifədə)

**(əvvəli 1-ci səhifədə)**

Dövlət büdcəsi layihəsində iqtisadi fəaliyyət xərclərinə 4444 milyon manat vəsait proqnozlaşdırılır.

Vurğulanıb ki, 2025-ci ildə ölkəmizin beynəlxalq aləmdə mövqelərinin təmin edilməsi, beynəlxalq öhdəliklərin yerinə yetirilməsi, beynəlxalq fəaliyyətin həyata keçirilməsi, o cümlədən xarici ölkələrə və beynəlxalq təşkilatlara yardımların göstərilməsi məqsədləri üçün 754,0 milyon manat vəsait ayrılması nəzərdə tutulur.

Bu xərclərin 205,0 milyon manatı Azərbaycanın xaricdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının saxlanılması xərclərinə, 32,0 milyon manatı beynəlxalq və regional təşkilatlara üzvlük haqqı xərclərinə, 8,0 milyon manatı beynəlxalq fəaliyyət və bu qəbildən olan digər tədbirlərlə bağlı xərclərə, 238,1 milyon manatı beynəlxalq, ölkə səviyyəli və bu qəbildən olan digər tədbirlərlə bağlı xərclərə yönəldiləcək.

Qeyd olunub ki, növbəti ilin dövlət büdcəsi gəlirlərinin tərkib hissəsi olan yerli gəlirlər 795,0 milyon manat nəzərdə tutulur, büdcənin yerli xərcləri 800,3 milyon manat məbləğində proqnozlaşdırılır.

Dövlət büdcəsinin ehtiyat fondları cari illə müqayisədə 38 milyon manat artaraq, 448 milyon manat təşkil edəcək.

2025-ci ilin dövlət büdcəsinin xərclərinin maliyyə təminatı ilə bağlı diqqətə çatdırılıb ki, xərclərin 92,6 faizinin və ya 38316 milyon manatının dövlət büdcəsinin gəlirləri hesabına təmin edilməsi nəzərdə tutulur. 7,4 faizinin və yaxud 3 milyard 52 milyon manatının isə dövlət büdcəsinin kəsirinin maliyyələşdirilməsi hesabına təmin edilməsi nəzərdə tutulur.

Gəlirlərin 19543,0 milyon manatı və ya 51 faizi qeyri-neft-qaz sektorunun, 18773,0 milyon manatı və ya 49 faizi neft-qaz sektorunun payına düşür.

Maliyyə naziri 2025-ci il üçün icmal büdcənin əsas parametrləri ilə bağlı məlumatında qeyd edib ki, icmal büdcənin gəlirləri 43911,0 milyon manat, xərcləri 47589,0 milyon manat proqnozlaşdırılır, icmal büdcənin kəsiri isə 3679,0 milyon manat təşkil edəcək.

Naxçıvan Muxtar Respublikası büdcəsinin gəlir və xərcləri bərabər olmaqla 540 milyon manat səviyyəsində, muxtar respublikaya ayrılan dotasiya isə 320,5 milyon manat proznozlaşdırılır.



Sonra çıxış edən **iqtisadiyyat naziri Mikayıl Cabbarov** gələn ilin büdcəsinin iqtisadi parametrlərindən danışıb. Bildirib ki, büdcənin tərtibatı prosesində sosial-iqtisadi inkişaf proqnozları baza, optimist və pessimist ssenarilərdə hazırlanaraq gözlənilən risklərin qiymətləndirilməsi üçün istifadə edilib.

Qeyd olunub ki, ÜDM-in növbəti ildə 3,5% (qeyri-neft-qaz sektorunda 4,9%), 2025-2028-ci illərdə isə orta illik hesabla 3,3% (qeyri-neft-qaz sektorunda isə 5%) artacağı proqnozlaşdırılır. Qeyri-neft-qaz sektorunun ÜDM-də payının hazırkı 66,4% səviyyəsindən ortamüddətli dövrün sonuna 77,8%-ə çatacağı gözlənilir. 2025-ci ildə ÜDM-in nominal həcmi 129,2 mlrd. manat, qeyri-neft-qaz sektorunda ÜDM-in nominal həcmi isə 92,2 milyard manat proqnozlaşdırılır.



**Mərkəzi Bankın İdarə Heyətinin sədri Taleh Kazımov** çıxışında 2024-cü ilin gözlənilən icra göstəriciləri ilə müqayisədə 2025-ci ildə dövlət büdcəsinin cəmi xərclərinin konservativ (5,4%) artımını məqbul qiymətləndirib, 2024-cü ilin büdcəsi ilə müqayisədə 2025-ci il üzrə büdcə kəsirinin 303 mln. manat azaldılmasını da müsbət dəyərləndirib. Diqqətə çatdırılıb ki, aparılan qiymətləndirmələrə görə, 2025-ci ilin dövlət büdcəsində büdcə xərclərinin inflyasiyaya 0,2 faiz bəndi artırıcı təsiri gözlənilir. Bu da əsasən cari xərclərdən irəli gəlir. Hesablamalara görə, əsaslı xərclərin inflyasiya təsiri əhəmiyyətli deyil.



Daha sonra **Hesablama Palatasının sədri Vüqar Gülməmmədov** "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinə dair Palata tərəfindən hazırlanmış rəyi təqdim edib.

Bildirilib ki, rəydə dövlət büdcəsinə dair qanun layihəsinin və onunla birlikdə təqdim olunan sənədlərin hüquqi aktlara uyğunluğu, dövlət büdcəsinin gəlir, xərc və kəsir üzrə proqnoz göstəricilərinin düzgünlüyü və tamlığı, bu göstəricilərin əsas makroiqtisadi parametrlərə və strateji sənədlərə adekvatlığı barədə ali audit orqanının mövqeyi ifadə edilib.

Qeyd olunub ki, büdcə əsas maliyyə planı olmaqla, qlobal çağırışlar, dövlət maliyyəsinin idarə edilməsi üzrə islahatların tələbinə və cəmiyyətin sosial ehtiyaclarını qarşılamaq kimi vəzifələrin icrasına hədəflənib.

Qeyd olunub ki, "Büdcə zərfi"ndə xam neftin qiymətinin dəyişməsi, dövlət borcu və zəmanəti üzrə maliyyə öhdəlikləri, büdcə xərclərinin dayanıqlı gəlir mənbələri ilə təmin olunmaması və iqlim dəyişiklikləri əsas fiskal risklər kimi şərh olunub, risklərə qarşı tədbirlər əks etdirilib. Hesablama Palatası tərəfindən aparılmış təhlillər büdcə sənədləşməsində şərh edilən risklərlə yanaşı, dövlət maliyyəsi üzrə bəzi digər risklərin də olduğunu göstərir. Bu risklər 3 istiqamətdə - makroiqtisadi, spesifik və institusional olaraq qruplaşdırılıb. 2025-ci ilin dövlət büdcəsində büdcə təşkilatlarının büdcədənkənar xərcləri büdcədənkənar gəlirlərindən 100,0 milyon manat artıq olmaqla 940,0 milyon manat məbləğində nəzərdə tutulmuşdur ki, bu da cari illə müqayisədə 13,1% çoxdur.

Fasilədən sonra iclasda "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi ətrafında müzakirələr aparılıb.

Millət vəkilləri gələn ilin dövlət büdcəsi layihəsinin parametrləri, proqnoz göstəriciləri, gəlirləri, xərc istiqamətləri, büdcə vəsaitlərinin icrasında şəffaflığın artırılması, istehsal sahələrinin, iş yerlərinin açılması, regionların iqtisadi inkişafı kimi məsələlərlə bağlı fikirlərini bildiriblər, rəy və təkliflərini səsləndiriblər.

* * *

Noyabrın 26-da Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib. İclasda 2025-ci ilin dövlət büdcəsi zərfinə daxil olan qanun layihələri və digər qanunlara dəyişikliklərlə bağlı layihələrin birinci oxunuşda müzakirəsi davam edib.

Hökumət üzvlərinin də iştirak etdiyi iclasın gündəliyinə 12 məsələ daxil edilib.

# DSMF-nin 2025-ci il büdcəsi haqqında qanun layihəsi birinci oxunuşda qəbul edilib

Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il büdcəsinin gəlir və xərcləri 7 676 420 000,0 manat məbləğində proqnozlaşdırılır.

Bu, 2024-cü illə müqayisədə 726 560 000 manat, yaxud 10,45% çoxdur.

Layihəyə əsasən, gələn il DSMF-nin xərclərinin maliyyələşmə mənbəyi aşağıdakılardır:

- Dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsinin gəlirləri - 7 617 400 000,0 manat;
- Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il yanvarın 1-nə yaradılmış ehtiyatından 2025-ci ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilən - 59 020 000,0 manat.

Fondun 2025-ci il üçün məcburi dövlət sosial sığorta haqları üzrə gəlirlərinin həcminin 5997,40 mln. manat və ya gəlirlərin 78,73 faizi qədər təşkil edəcəyi proqnozlaşdırılır ki, bu da 2024-cü ilin təsdiqlənmiş proqnoz məbləği göstəricisi ilə müqayisədə 519,26 mln. manat və ya 9,48 faiz çoxdur.

# Azərbaycanda ehtiyac meyarı və yaşayış minimumunun həddi artırılır

Gələn il ehtiyac meyarı və yaşayış minimumunun həddi 285 manat götürüləcək.

Bu, "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsində əksini tapıb.

Qeyd edilib ki, 2025-ci il 1 yanvar tarixindən ehtiyac meyarının həddi 270,0 manatdan 285,0 manata yüksəldiləcək.

Yaşayış minimumunun da artıq ehtiyac meyarına bərabər götürüldüyü nəzərə alınsa, yaşayış minimumu və ehtiyac meyarı 2024-cü illə müqayisədə 5,5 faizdən çox artırılır.

Müzakirələrdən sonra sənəd səsverməyə qoyularaq birinci oxunuşda qəbul edilib.

# Əlilliyə görə pensiyaya çıxmaq üçün sığorta stajına aydınlıq gətirilib

***"Əlilliyə görə pensiyaya çıxmaq üçün sığorta stajı yalnız həmin şəxsin əmək qabiliyyəti dövrü üçün tələb olunur, əlil olduqdan sonrakı dövr üçün belə bir tələb yoxdur".***

Bunu Milli Məclisin noyabrın 27-də keçirilən plenar iclasında çıxışı zamanı əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deyib.

"Vətəndaş heç vaxt işləməyib sonradan əlil olursa, əlbəttə sosial sığorta ödəmədiyinə görə pensiya sisteminə girə bilməyəcək, o, müavinət sisteminə girəcək. Amma əgər vətəndaş işləyib sonradan əlillik qazanıbsa, əmək qabiliyyətli hər ilinə görə cəmi 4 ay sığorta stajı tələb olunur. Düşünürük ki, bu, kifayət qədər böyük güzəştli yanaşmadır", – deyə nazir bildirib.

# Bəzi alqı-satqılar üzrə ödənişləri nağd qəbul edənlər cərimələnəcək

Qiymətli daşların, qiymətli metalların, o cümlədən qiymətli daşlardan və qiymətli metallardan hazırlanmış məmulatların və mədəniyyət məhsullarının alqı-satqısı üzrə və rəsmi reyestrlərdə qeydiyyata alınmış daşınar əmlakın alqı-satqısı üzrə (avtomobil satışı istisna olmaqla) ümumi məbləği on beş min manatdan artıq olan ödənişləri nağdsız qaydada həyata keçirməyən vergi ödəyicilərinə maliyyə sanksiyası tətbiq ediləcək. Bu, Milli Məclisin noyabrın 27-də keçirilən iclasında müzakirəyə çıxarılan Vergi Məcəlləsinə təklif edilən dəyişikliklərdə əksini tapıb.

# "Karbonsuz iqtisadiyyat üçün təchizatçı olmaq yaşıl artıma töhfə verəcək"

"Karbonsuz iqtisadiyyat üçün təchizatçı olmaq yaşıl artıma və qlobal emissiyaların azalmasına töhfə verəcək"

Bu barədə nazir Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki hesabında bildirib.

"İqtisadiyyat Nazirliyi və Harvard Universitetinin əməkdaşlığı əsasında hazırlanaraq COP29-da təqdim olunan Yaşıl artım portalı (https://growthlab.app/greenplexity) ölkələrə və investorlara yaşıl keçid strategiyalarını təkmilləşdirməyə kömək edəcək. Universitetin "Growth Lab" Beynəlxalq İnkişaf Mərkəzinin təsisçisi və direktoru, professor Rikardo Hausmanın rəhbərliyi ilə yaradılmış interaktiv alət yaşıl dəyər zənciri üzrə tədqiqat məlumatlarını əhatə edir. Yaşıl artım portalı karbonsuzlaşmaya xidmət edən yeni sənaye sahələrinin, yeni bazarların və inkişaf istiqamətlərinin formalaşmasını stimullaşdıracaq. Karbonsuz iqtisadiyyat üçün təchizatçı olmaq yaşıl artıma və qlobal emissiyaların azalmasına töhfə verəcək", - deyə paylaşımda qeyd olunub.

# Həyatın yığım sığortası sahəsində vergi və sosial sığorta ilə bağlı güzəştlər dövlət sektoruna münasibətdə ləğv olunur

Həyatın yığım sığortası sahəsində vergi və sosial sığorta ilə bağlı güzəştlərin dövlət sektoruna münasibətdə tətbiqinin 1 yanvar 2025-ci il tarixində ləğvi təklif olunur.

Bu, Milli Məclisin noyabrın 27-də keçirilən iclasında müzakirəyə çıxarılan "Sosial sığorta haqqında" qanuna təklif olunan dəyişiklikdə əksini tapıb.

Bununla, dövlət büdcəsinin və Dövlət Sosial Müdafiə Fondunun gəlirlərinin artacağı proqnozlaşdırılır.

Qanun layihəsi səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edilib.

# Torpaq sahələri üzrə icarə ƏDV-yə cəlb edilməyəcək

Bunu Dövlət Vergi Xidmətinin Vergi siyasəti Baş İdarəsinin rəisi Nicat İmanov "Biznes assosiasiyaları və sahibkarlarla əməkdaşlıq və onun nəticələri" mövzusunda keçirilən tədbirdə deyib.

O bildirib ki, investisiya mühitinin və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması istiqamətində mühüm addımlar atılmaqdadır:

"Bu addımlardan biri kimi torpaq sahələri üzrə icarənin ƏDV-yə cəlb edilməməsini qeyd edə bilərəm.

Hüquqi şəxslər tərəfindən torpaq icarəsinə görə əldə edilən icarə haqqı ƏDV-dən azad edilir. Eyni zamanda, ƏDV-nin vergitutma obyekti ilə bağlı Vergi Məcəlləsinin normaları arasında uzlaşdırma aparılır".

*"Qeyd edim ki, fiziki şəxslər tərəfindən torpaqların icarəyə verilməsi qeyri-sahibkarlıq fəaliyyətindən gəlirə aiddir. Bu səbəbdən icarə haqqı ƏDV-yə cəlb edilmir"*, - deyə o əlavə edib.

# Vergi Məcəlləsinin təkmilləşdirilməsi ilə bağlı təkliflər mühüm əhəmiyyət daşıyır

***"Dövlət biznes dialoqu platforması çərçivəsində vergi qanunvericiliyinin təkmilləşdirilməsi üzrə görülən işlər, bu sahədə maraqlı tərəflərlə əməkdaşlığın nəticələri və bu işlərin hesabat xarakterli olaraq ilin sonuna yaxın təqdim olunması yüksək qiymətləndirilir".***

Bu sözləri Prezident Administrasiyasının sektor müdiri Vüsal Şıxəliyev noyabrın 26-da "Biznes assosiasiyaları və sahibkarlarla əməkdaşlıq və onun nəticələri" mövzusunda tədbirdə söyləyib.

V.Şıxəliyev qeyd edib ki, il ərzində davamlı olaraq maraqlı tərəflərin inklüziv iştirakı ilə vergi qanunvericiliyinin müxtəlif aspektlərinin inkişaf etdirilməsi və sonda bu platforma çərçivəsində ödənişlər, nəzərə alınan təkliflər və qarşıdakı prioritetlərin birgə müzakirə olunması əslində əldə etdiyimiz nəticələri düzgün qiymətləndirmək üçün geniş imkanlar yaradır.

"Xüsusi vurğulamaq istərdim ki, Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiya çərçivəsində hazırda 33 işçi qrupu fəaliyyət göstərir və onlardan 2-si bilavasitə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəhbərliyi ilə həyata keçirilir. Bizim bugünkü görüşümüzün mandatına uyğun olaraq vergi və hesabatlılıq işçi qrupunun fəaliyyəti çərçivəsində həm il ərzində Vergi Məcəlləsinin, həm də digər kateqoriyalı normativ-hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflər mühüm əhəmiyyət daşıyır.

Prezident Administrasiyasının rəsmisi, həmçinin diqqətə çatdırıb ki, bir çox hallarda qanunvericiliyin inkişaf etdirilməsi, təkmilləşdirilməsi onun düzgün tətbiqindən də asılıdır: ***"Bu baxımdan qanunvericilikdəki müddəaların aydın başa düşülməsi və praktikada istifadə edilməsi çox önəmlidir"***.

# ВЫБОРЫ ПРЕЗИДЕНТА РЕСПУБЛИКИ БЕЛАРУСЬ: БУДУЩЕЕ ЗАВИСИТ ОТ НАС

## Пресс-релиз Посольства Беларуси в Азербайджане

**Выборы-2025: коротко о главном**

Свое будущее белорусы определят **26 января 2025 г**. Именно на этот день Палатой представителей Национального собрания назначены выборы Президента Республики Беларусь.

На совещании по вопросам проведения выборов Глава государства А.Г.Лукашенко сказал: «Мы проводим в Беларуси предвыборную кампанию для своего народа и интересы наших людей должны быть поставлены во главу угла. А не так, как кто-то хочет там за границей».




Выборы являются неотъемлемым атрибутом современной государственности. Это политический инструмент, благодаря которому граждане наделяют властными полномочиями тех, кому доверяют и в ком видят своего лидера, способного обеспечить мир, развитие и благополучие.

Дата обусловлена рядом причин.

Во-первых, она соответствует срокам, определенным Конституцией и Избирательным кодексом Республики Беларусь.

Во-вторых, исходя из положительной практики организации референдума 2022 года и единого дня голосования 2024 года, очевидно, что проведение выборов в весенне-летнее время было бы осложнено посевной кампанией, отпускной порой и вступительными экзаменами в учреждения образования, где, как правило, располагаются избирательные участки для голосования.

В-третьих, минимальный временной разрыв между единым днем голосования и президентской кампанией позволит наиболее рационально использовать наработанный потенциал – человеческие, организационно-технические, финансовые, информационные ресурсы.

В-четвертых, президентские выборы предваряют окончание предыдущей и начало следующей пятилетки. Подводить итоги и определять дальнейший стратегический курс развития страны, основные направления внутренней и внешней политики, логично, должен вновь избранный Глава государства.

Выборы-2025 завершат цикл политической модернизации, начатый референдумом **27 февраля 2022 г**. Система институтов власти примет окончательную форму, прописанную в новой редакции Конституции Республики Беларусь.

Согласно календарному плану организационных мероприятий по подготовке и проведению выборов Президента Республики Беларусь, образованы ***153 территориальных комиссии,*** не позднее ***26 декабря 2024 г****. будут созданы более* ***5 тыс. участковых комиссий***. Участки для голосования будут образованы не позднее ***11 декабря 2024 г.***

В Беларуси выдвижение кандидатов в Президенты происходит одним способом – путем сбора подписей граждан. Эту функцию взяли на себя инициативные группы по сбору подписей для выдвижения кандидатов в Президенты. Всего Центральная избирательная комиссия зарегистрировала 7 таких инициативных групп. Требования, предъявляемые к кандидату в Президенты Республики Беларусь гражданин Республики Беларусь по рождению; не моложе 40 лет; обладает избирательным правом и проживает в Республике Беларусь не менее 20 лет непосредственно перед выборами; не имеет и не имевший ранее гражданства иностранного государства либо вида на жительство или иного документа иностранного государства, дающего права на льготы и другие преимущества.

Сбор подписей – с 7 ноября по 6 декабря 2024 г.

Инициативная группа должна собрать в поддержку своего кандидата не менее 100 тыс. подписей.

В период с **22** по 31 декабря 2024 г. пройдет регистрация кандидатов в Президенты Республики Беларусь.

С **1 по 25 января 2025 г**. будет проводиться предвыборная агитация, самый активный и ответственный этап избирательной кампании. В день голосования, 26 января, агитация запрещена законодательством.

Досрочное голосование на выборах Президента Беларуси начнется **21 января 2025 г**. и будет продолжаться в течении 5 дней.

Итоги выборов Президента Республики Беларусь будут установлены Центральной избирательной комиссией не позднее **5 февраля 2025 г**. В случае необходимости (не позднее **9 февраля 2025 г**.) будет проведен второй тур голосования.

В целях информирования граждан о ходе подготовки и проведения выборов постановления ЦИК будут размещаться на официальном сайте.

Создание избирательных участков за рубежом на президентских выборах не предусмотрено.

Для не имеющих регистрации граждан из-за рубежа, которые сочтут необходимым приехать и проголосовать, будет организован участок в г.Минске.

Институт президентства: от достижений прошлого к успехам будущего. Институт президентства в Беларуси имеет судьбоносное значение. Все достижения суверенной Республики Беларусь за последние десятилетия неразрывно связаны с именем национального лидера – Александра Григорьевича Лукашенко. Причина проста – наш Президент глубоко воспринимает избрание белорусским народом как свою жизненную миссию. Это его черта, и она выгодно отличает его от других политических деятелей. Именно восприятие президентства как служение народу является тем ключом, который позволяет добиваться успехов.

В Беларуси построено суверенное и независимое государство для народа. Сформирована собственная, уникальная модель народовластия. Беларусь является страной с низким уровнем социального расслоения населения по доходам. Именно такой, по убеждению Главы государства, и должна быть цивилизованная высокоразвитая страна.

*Президент*, говоря о достижениях суверенной Беларуси в своем выступлении на заседании *седьмого Всебелорусского народного собрания, подчеркнул, что «белорусы никогда еще так хорошо не жили, как сейчас»*.

*Чем может гордиться суверенная и независимая Республика Беларусь*?

*Наша страна самостоятельно обеспечивает себя во всех стратегически важных сферах жизни*. Под руководством Главы государства удалось не только сохранить и модернизировать наши *промышленные гиганты (МАЗ, БЕЛАЗ, МТЗ, БМЗ и многие другие)*, но и создать совершенно *новые, высокотехнологичные предприятия (Белорусская атомная электростанция, Китайско-Белорусский индустриальный парк «Великий камень», завод «БЕЛДЖИ», Белорусская национальная биотехнологическая корпорация и другие знаковые объекты)*. Это означает, что созданы сотни тысяч рабочих мест, обеспечены экономическая независимость страны и ее политический суверенитет.

*На долю Беларуси приходится около* **80% производимых в СНГ тракторов**, около **50% химических волокон и нитей**, *пятая часть холодильников и морозильников*.

*По производству* ***большегрузных автомобилей*** *страна занимает* ***одно из ведущих мест в мире***. Промышленный комплекс формирует почти треть ВВП *страны и 80% экспорта товаров.*

***Беларусь – космическая держава.*** *Значимым этапом по углублению и расширению сотрудничества Беларуси с коллегами в клубе космических держав стал полет на российский сегмент Международной космической станции белорусского космонавта М.В.Василевской.*

***На орбите – четыре белорусских спутника.*** *Ведь сегодня космическими технологиями в повседневности пользуется почти каждый из нас. Интернет, телевидение, мобильная связь, навигация, прогноз погоды и многие другие задачи цивилизации обеспечиваются благодаря им. И это не предел, есть четкое видение развития перспективных проектов, к реализации которых мы уже приступили.*

*Уровень белорусских специалистов в области* **IT** *технологий и искусственного интеллекта известен во всем мире и не нуждается в дополнительной рекламе.*

*Такие традиционные для нашей страны отрасли как микроэлектроника, приборостроение, станкостроение в последние годы получили второе дыхание и развиваются ускоренными темпами.*

*В Беларуси не стали следовать «рекомендациям» МВФ по сокращению господдержки ельхозпредприятий.*

*Благодаря дальновидной политике Главы государства с его опытом хозяйствования «от земли» и трудолюбию белорусов сегодня мы* ***не только*** *сами себя обеспечиваем продовольствием (причем за счет собственного производства)*, *но и вошли в пятерку крупнейших экспортеров в Европе.*

*Повышенное внимание уделяется развитию регионов. В части реализации инвестиционных проектов «Один район – один проект» почти у половины всех районов будут реализованы по два проекта, у каждого десятого района – по три, а в Дзержинском районе Минской области одномоментно будут осуществляться 5 проектов.*

*В Год качества, благодаря осуществлению 180 проектов, в стране было создано более 9 тыс. рабочих мест.*

Сегодня в Беларуси строятся дома и больницы, новые станции метрополитена, вводятся физкультурные комплексы, прилавки магазинов ломятся от изобилия товаров. Наша пищевая и легкая промышленность известна на весь мир.

Неизменным национальным брендом Беларуси остается социальное государство, которое проявляет заботу о гражданах, активно развивая здравоохранение и социальную сферу, оказывая помощь малообеспеченным слоям населения.

За последние три года введено в эксплуатацию ***12 803,6 тыс. кв. м****, из кот*орых ***3 774,3*** тыс. кв. м – для граждан, состоящих на учете нуждающихся в улучшении жилищных условий*;* ***601,7 тыс.*** кв. м – арендного жилья.

На особом контроле у Президента Республики Беларусь находится сфера здравоохранения. К слову, обеспечены всем необходимым межрайонные центры, в которых диагностика и лечение проводятся не хуже, чем в столичных клиниках. Такие центры созданы в 12 городах Беларуси с численностью населения более 80 тыс. человек.

О качестве белорусской медицины говорит и тот факт, что отечественная система здравоохранения прошла хорошую «закалку» в период пандемии. На фоне других государств Беларусь более чем достойно прошла это испытание и на практике подтвердила состоятельность нашей системы здравоохранения.

Сохранение и приумножение культурно-исторического наследия – еще одно из направлений гордости белорусов.

«Ни один народ в мире не может быть по-настоящему независимым, не обладая богатым культурным наследием и не имея крепкой духовной основы», – убежден Глава государства.

С момента избрания А.Г.Лукашенко на должность Президента ключевым элементом внутренней политики является бескомпромиссная и решительная борьба с коррупцией.

Ярким подтверждением слов Президента Республики Беларусь о том, что «неприкасаемых в стране нет», если речь идет о коррупции, являются факты привлечения к уголовной ответственности должностных лиц независимо от их статуса.

Независимая Беларусь последовательно демонстрирует внешнюю миролюбивую политику. **Растет международный авторитет республики.** Об этом убедительно свидетельствует участие Президента Беларуси в саммите БРИКС, а также прошедшая 31 октября – 1 ноября 2024 г. **II** Минская международная конференция по евразийской безопасности.

К слову, недавно опубликован рейтинг стран мира по достижению Целей устойчивого развития *(*искоренение нищеты, решение экологических, социальных проблем*)*. Беларусь заняла **30-е место**, обойдя все страны СНГ, а также США.

Суверенитет любого государства в значительной степени зависит от способности руководителя страны проводить эффективную политику в сфере национальной безопасности.

Нынешним поколениям белорусов посчастливилось родиться и жить под мирным небом.

И в этом тоже заслуга сильного Президента.

Наша задача – продемонстрировать сплоченность белорусского общества, верность нашим политическим традициям. Поэтому мы все должны понимать, что **выбираем не просто Главу государства, а мирное развитие нашей Беларуси**.

## Милли Меджлис принял в первом чтении Государственный бюджет Азербайджана на 2025 год



В Милли Меджлисе (парламент) завершилось обсуждение законопроекта Азербайджанской Республики "О государственном бюджете Азербайджанской Республики на 2025 год" в первом чтении.

На заседании министр финансов Азербайджана Самир Шарифов проинформировал о государственном бюджете на следующий год.

Доходы государственного бюджета Азербайджанской Республики на 2025 год составили 38 миллиардов 316 миллионов манатов, расходы - 41 миллиард 367,6 миллиона манатов (в том числе централизованные доходы - 37 миллиардов 520,9 миллиона манатов, местные доходы - 795 миллионов 48 тысяч манатов, централизованные расходы - 40 миллиардов 567,265 миллиона манатов, местные расходы - 800,3 миллиона манатов).

После обсуждений документ был вынесен на голосование и принят в первом чтении.

## В Налоговый кодекс Азербайджана внесено 206 изменений

С 2021 по 2023 годы в Налоговый кодекс Азербайджана было внесено 206 изменений.

Об этом заявил начальник Главного управления налоговой политики Государственной налоговой службы Ниджат Иманов на мероприятии «Сотрудничество с бизнес-ассоциациями и предпринимателями и его результаты», сообщает Trend.

«За указанные годы было внесено 82 изменения, связанных с совершенствованием управления и сохранением позиций в международных рейтингах. В то же время в связи с оптимизацией налогового бремени и изменениями социального характера было внесено 76 изменений, а в связи с расширением налогооблагаемой базы и борьбой с теневой экономикой - 48», - сказал Н.Иманов. Отметим, что Государственная налоговая служба при Министерстве экономики провела мероприятие на тему «Сотрудничество с бизнес-ассоциациями и предпринимателями и его результаты».

На мероприятии состоялась презентация об изменениях, внесенных в налоговое законодательство и администрирование за последние годы, а также о результатах формата взаимодействия, созданного в процессе этой деятельности совместно с соответствующими государственными учреждениями и бизнес-ассоциациями, субъектами предпринимательства.



# MƏLUMATLAR NECƏ QORUNMALIDIR?
## Oğrunun heç günahı yoxdur?

Hər zaman təcrübədən çıxış edərək, şəxsi və fərdi məlumatları bir-birindən ayırmışam. Düşünürəm ki, bu formada izah etsəm fikirlərimi daha aydın ifadə edə bilərəm. Şəxsi məlumatlar şəxsdə olan bütün məlumatların toplusudur. Ola bilər ki, bizim apardığımız tədqiqatlar, yazdığımız əsərlər, layihələr və s. Bu məlumatlarla tanış olan şəxs ola bilər ki, məlumatların hansı fərdə aid olduğunu bilməsin. Fərdi məlumatlar isə qanunda qeyd edildiyi kimi: Şəxsin kimliyini birbaşa və ya dolayısı ilə müəyyənləşdirməyə imkan verən istənilən məlumatdır. Dünyada fərdi məlumatların mühafizəsi üçün müəyyən qanunlar, qaydalar, sənədlər mövcuddur. Hər kəs bu mövzularda öz təcrübəsini inkişaf etdirməklə məşğuldur. Şəxslər də, qurumlar da. Bu sənədlərə bəzi misallar göstərmək olar. Məsələn: GDPR (General Data Protection Regulation - Ümumi Məlumatların Qorunması Qaydası) 25 may 2018-ci il tarixindən etibarən bütün Avropaya üzv dövlətlərdə məlumatların məxfiliyi qanunlarını uyğunlaşdırmaq üçün tətbiq edilir.

GDPR-ə görə məlumat nəzarətçisi adlanan məlumat sahibi əldə edilmiş məlumatları qanun qaydalarına uyğun olaraq, ədalətli və şəffaf şəkildə emal etməlidir. Burada qeyd edilməsi nəzərdə tutulan odur ki, əgər bir şirkət və ya qurum məlumatlarınızı emal etmək istəyirsə, bu, sizin razılığınıza tabe olmalıdır.

Bundan əlavə, məqsədsiz və istəmədən əldə edilmiş məlumatlar olarsa, bu məlumatlar heç bir şəkildə işlənilə, arxivləşdirilə və heç bir araşdırmada istifadə edilə bilməz. Məlumatların işlənməsi üçün əsaslı səbəb və razılıq tələbi mütləqdir. Əldə edilməli olan məlumatlar GDPR-ə uyğun olaraq, mümkün qədər minimum olmalıdır və müvafiq olaraq məhdudlaşdırılmalıdır. Bundan əlavə, bu məlumatlar əldə edildiyi məqsədə uyğun olaraq, minimum müddət ərzində saxlanmalı və sonra heç bir gecikmə və ya fasilə olmadan geri qaytarıla bilməyəcək şəkildə silinməlidir. Heç kimin təqdim etdiyiniz məlumatları qeyri-müəyyən müddətə saxlamaq hüququ yoxdur.

Məlumatların qorunması daha həssas bir məsələdir. Məlumat nəzarətçiləri bu məlumatları ən həssas və etibarlı şəkildə arxivləşdirməsə və qorumasa, ciddi cərimələr və həbslər tətbiq edilə bilər.

Xülasə, məlumatlar heç kimin əldə edə, nüsxələyə və yaya bilməyəcəyi şəkildə saxlanıla bilər. Bu məlumatları saxlayan şəxslər və ya qurumlar məlumatların təhlükəsizliyinə cavabdehdirlər. Bu mövzuda qanun çox həssasdır. Bu həssaslığa görə məlumat nəzarətçiləri İT menecerləri ilə birlikdə əldə edilmiş şəxsi məlumatların qorunması üçün ciddi tədbirlər görürlər. Xüsusilə şəbəkə sisteminə malik olan və hər an xarici kiberhücum təhdidləri ilə üzləşə bilən şirkətlər bu hücumlar nəticəsində qorumalı olduqları şəxsi məlumatlarını itirmək riskindən qaçmaq üçün ciddi təhlükəsizlik tədbirləri görməlidirlər. Qanun açıq şəkildə məlumatların qorunması üçün bütün məsuliyyəti məlumatları saxlayanların üzərinə qoyur. Bu şirkətlərin "oğrunun heç günahı yoxdur?" demək şansı yoxdur. Digər aşağıda göstərilmiş müxtəlif beynəlxalq qanunlar da mövcuddur.



**Bəhruz Əliyev,**
**İnformasiya Texnologiyaları üzrə mühəndis-tədqiqatçı,**
**Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) eksperti**




PIPL (Personal Information Protection Law– Şəxsi Məlumatların Mühafizəsi Qanunu) - əsasən Çində tətbiq edilir. Kişisel Verilerin Korunması Kanunu - Şəxsi Məlumatların Mühafizəsi Qanunu Türkiyədə tətbiq edilir. Azərbaycanda isə Fərdi məlumatlar haqqında Azərbaycan Respublikasının Qanunu mövcuddur. Təbii ki, bütün ölkələr öz qanunlarının bu sahədə təkmilləşdirilməsi üçün çalışırlar. GDPR hal-hazırda isə bu sahədə əsas təkmil sənəd hesab olunur. Telefon kontaktlarımız, tefefondakı şəxsi və ailəvi şəkillərimizin ələ düşməməsi və s. üçün edilə biləcək bəzi texniki məsələləri qeyd etmək olar.

*1. "Google Play" və "App Store"-da olmayan 3-cü tərəf proqramları əsla yükləməyin;*
*2. "Google Play" və "App Store"-dan yükləmək istədiyiniz tətbiqin yüklənmə sayı 3000-dən aşağıdırsa, onu əsla yükləməyin;*
*3. Tətbiq yükləyərkən, sizdən tətbiqin istədiyi icazələrə diqqət yetirin. İcazələri minimallaşdırın və istədiyi icazələr məntiqli deyilsə, yükləməkdən imtina edin;*
*4. Qarşınıza çıxan cəzbedici mərc oyunları və digər linklərin üzərinə vurmayın;*
*5. Mümkün qədər pulsuz, amma global olaraq, tanınmamış xidmətlərdən və oyunlardan istifadə etməyin. Xidmət pulsuzdursa, satılan sizin məlumatlarınızdır;*
*6. Heç kəsə SMS təsdiq kodunuzu və ya bank kartınızın 16 rəqəmi xaricindəki rəqəmləri deməyin. Kartın şəklini çəkib göndərərkən, digər məlumatları bağlayın. Qarşıdakı insana güvənə bilərsiniz, amma onun telefonu yoluxarsa, sizə də ciddi zərər dəyə bilər;*
*7. Avadanlığınızı daimi olaraq "UPdate" edin;*
*8. Sosial şəbəkələrimizi təmiz mühitdə istifadə etmək lazımdır;*
*9. Mobil və kompüter avadanlıqlarımızda pirat olmayan proqram təminatlarından istifadə etməli, mənbəyi bilinməyən "VPN" və ya digər fərqli üsullarla xüsusi imkanlar əldə etmək üçün cihazımıza hər hansı bir proqram yükləməməliyik;*
*10. İkili identifikasiya, ikimərhələli təsdiqləmənin aktivləşdirilməsidir.*




***Telefon və ya kompüterdən silinən və ya format olunmuş bütün məlumatları digər bir şəxs əldə edə bilərmi?***

Telefon və ya kompüterdən silinmiş və ya format olunmuş məlumatların başqaları tərəfindən bərpa edilməsi mümkündür. Məlumat silindiyi zaman, əslində məlumat diskin üzərindən dərhal silinmir. Fayl sistemində bu məlumatların saxlandığı sektorlar "boş" kimi işarələnir. Yeni məlumat yazıldıqda bu sahələrin üzərinə yazılır. Silinmiş məlumatları bərpa etmək üçün müxtəlif proqramlar mövcuddur. Bu proqramlar diskin boş sahələrində olan silinmiş məlumatların izlərini tapmağa çalışır.

***Bunun qarşısını almaq üçün vətəndaş nə edə bilər?***

*1. Tam Formatlama həyata keçirərək, sektorda olan məlumatları bir növ obrazlı ifadə etsək, dərindən silmək mümkündür.*
*2. Disk Şifrələmək ilə məlumatları qorumaq olar.*
*3. Diskləri məhv etmək ən asan və təmiz üslubdur.*

***Son zamanlar "fake mesaj"larla daha çox qarşılaşırıq. Belə hallarda aldanmayan tərəf olmamaq üçün nələr edilə bilər?***

*1. Göndərənə diqqət etmək lazımdır. Mesajın göndərən e-poçt ünvanı və ya telefon nömrəsi sizə tanış gəlmirsə və ya şübhəlidirsə, mesajın etibarsız olma ehtimalı yüksəkdir.*
*2. Mesajda verilən linklərdəki URL-ləri diqqətlə yoxlayın. Şübhəli mətnlərə diqqət yetirin. Mesajın dili və üslubu qeyri-rəsmi və ya qeyri-adi görünə bilər. Məsələn, yazı səhvləri, qrammatika səhvləri və ya qeyri-adi tələblər mesajın saxta olma ehtimalını artırır.*
*3. Mesajın təcili reaksiya tələb etməsi və ya sizi qorxutması, məsələn, "Hesabınız bloklanır!" və ya "Zəhmət olmasa dərhal cavab verin!" kimi ifadələr saxta ola bilər.*
*4. Mesaj sizdən şəxsi məlumatlarınızı (şifrə, kredit kartı nömrəsi və s.) tələb edirsə, şübhələnməlisiniz. Rəsmi təşkilatlar belə məlumatları e-poçt və ya SMS vasitəsilə tələb etməzlər.*
*5. Mesajın doğruluğunu təsdiqləmək üçün rəsmi təşkilatların və ya xidmətlərin veb saytlarından öyrənmək və ya çağrı mərkəzi ilə əlaqə saxlamaq olar. Rəsmi təşkilatlar mesaj göndərmişsə, onlar üçüncü tərəflər vasitəsilə yoxlamalar etməyi tövsiyə edəcəklər.*
*6. Rəsmi e-poçt ünvanlarından və sosial media hesablarından mesajların doğru olub-olmadığını yoxlayın.*
*7. Mesajda göstərilən linkləri klikləməkdən əvvəl, linkin URL-ni diqqətlə yoxlayın. Şübhəli görünən və ya tanımadığınız saytlara yönəldən linklərə klikləməyin.*
*8. Cihazınızda etibarlı antivirus və antimalware proqramlarının quraşdırılmış olmasından əmin olun. Bu proqramlar bəzən şübhəli və potensial təhlükəli bağlantıları blok edə bilər.*
*9. Şübhəli mesajlar aldığınızda, təşkilatın rəsmi saytını ziyarət edərək məlumatları yoxlayın. Bu tədbirlər sizə fake mesajlardan qorunmağa kömək edəcək və şəxsi məlumatlarınızın təhlükəsizliyini təmin edəcək.*

Bəzi xüsusi məsələləri qeyd etməyə çalışdıq. Əgər tamamilə yad və təhlükəli hesab etdiyiniz bir məqam olarsa, heç nə etməyin, əlaqədar təhlükəsizlik əməkdaşlarından və dövlətin ixtisaslaşmış qurumlarından kömək istəyə bilərsiniz. Ümud edirik, qeyd edilən məqamların hər kəsə ciddi köməyi dəyəcəkdir.

# Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin nümayəndə heyəti COP29 çərçivəsində təşkil olunmuş tədbirlərdə iştirak edib



Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavinləri İsmayıl Əfəndiyev və Şahlar Mirqasım 11-22 noyabr 2024-cü il tarixlərində Bakı şəhərində keçirilən Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində Mavi və Yaşıl Zonalarda ekologiya ilə əlaqəli sağlamlıq problemləri mövzularına həsr edilmiş plenar və panel iclaslarında, yüksək səviyyəli dəyirmi masalarda və diskussiyalarda fəal iştirak ediblər, eyni zamanda COP29 beynəlxalq tədbirində təşkil edilmiş iştirakçı ölkələrin pavilyonlarını ziyarət edib, ekologiya ilə bağlı nümayiş olunan stendlər, layihələr və materiallar ilə tanış olublar.




Həmçinin, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin nümayəndə heyəti COP29 tədbirində qonaqlara və iştirakçılara həftənin 7 günü 24 saat ərzində ilk və təcili tibbi yardım xidmətlərinin təşkili işi ilə tanış olub, Mərkəzi Gömrük Hospitalından mötəbər COP29 tədbirində tibbi xidmətlər göstərən həkimlər və orta tibb işçiləri ilə görüşüb, onlara öz tövsiyələrini verib.

**Dilarə Zamanova, Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# Qarabağ və Şərqi Zəngəzurda əhalinin 80%-dən çoxunun məşğulluğu təmin edilib

***"Azərbaycanın işğaldan azad edilmiş ərazilərində məskunlaşmış və iqtisadi fəal şəxslərin 80%-dən çoxunun məşğulluğu təmin edilib".***



Bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahib Babayev Milli Məclisin plenar iclasında – dövlətə məxsus sosial fondların 2025-ci il dövlət büdcələri haqqında qanun layihələrinin müzakirəsi zamanı bildirib.

Onun sözlərinə görə, Qarabağ və Şərqi Zəngəzurda digər şəxslərin də məşğulluğunun təmin olunması istiqamətində işlər aparılır.

# "Bakcell"in təşkilatçılığı ilə "Süni İntellektlə Dayanıqlılıq" mövzusunda panel müzakirəsi keçirilib

***İnnovasiya və sürət lideri "Bakcell"in təşkilatçılığı ilə "Süni İntellektlə Dayanıqlılıq" mövzusunda panel müzakirəsi keçirilib.***




Tədbirə spiker qismində "Bakcell"in Marketinq direktoru Elxan Sadıqzadə, "PwC Azərbaycan"ın Məsləhət xidmətləri departamentinin rəhbəri Fərid Qattal və İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin İnnovasiyalar üzrə rəhbəri Evgeniya Bikmurzina qatılıblar. Müzakirələr "Bakcell"in Korporativ kommunikasiyalar və ictimaiyyətlə əlaqələr üzrə direktoru Aysel Süleymanovanın moderatorluğu ilə baş tutub.

Tədbirin keçirilməsində məqsəd süni intellekt və innovativ texnologiyaların dayanıqlı inkişaf hədəflərinə çatmaqda oynadığı mühüm rolu, eləcə də yaşıl texnologiyalara keçidin ətraf mühit və iqtisadiyyat üçün yaratdığı perspektivləri müzakirə etmək olub. İştirakçılar qeyd ediblər ki, süni intellekt əsaslı yeni texnologiyalar resurslardan daha səmərəli istifadəyə, həmçinin iqlim dəyişikliyi ilə mübarizədə yeni yanaşmalar tətbiq etməyə imkan verir. Vurğulanıb ki, süni intellektin tətbiqinin genişlənməsi ekoloji və iqtisadi dayanıqlığı gücləndirərək daha yaşıl və dayanıqlı gələcəyin qurulmasına önəmli töhfə verəcək.

İnteraktiv formada təşkil olunan panel müzakirəsi sual-cavab sessiyası ilə davam edib.

Tədbir "Bakcell"in dayanıqlı inkişaf hədəflərinə çatmaq və yaşıl texnologiyalar vasitəsilə iqtisadi inkişafa töhfə vermək istiqamətində öhdəliyinə sadiqliyini göstərir.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Qüdrət Kərimov, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı: Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq: +99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500